Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**

# Tarixin dönüş anı- 15 iyun Milli Qurtuluş Günü

*15 iyun Milli Qurtuluş Günü münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait*

**Bakı – 2016**

Tərtibçi: **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

Redaktor və buraxılışa məsul: **Şəhla Qəmbərova**
Əməkdar Mədəniyyət İşçisi

15 iyun Milli Qurtuluş Günü münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait /tərt. ed. A. Əliyeva; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.-33s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

**2016**

## Tərtibçidən.

Tarixin yaddaşına möhürünü vurmuş fövqəladə şəxsiyyətlərin zəngin, şərəfli və mənalı ömür yolunu nəzərdən keçirmək bütöv bir millətin, dövlətin salnaməsini yaratmaq qədər çətindir. Ümummilli lider Heydər Əliyev də Azərbaycan xalqının tarix boyu yetirdiyi nadir və qeyri-adi şəxsiyyətlərdən biri olaraq bu gün milyonların qəlbində yaşayır. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi böyük ehtiramla, rəğbətlə xatırlanır. Ümumilli lider Heydər Əliyev Azərbaycan xalqınının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. O, Azərbaycanın tərəqqi və inkişafını müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, ehkamlaşmış köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

Respublikamızın bütün vətəndaşları Milli Qurtuluş Gününü təntənə ilə qeyd edirlər. Bu gün bütün içtimaiyyətimiz haqlı olaraq dərin iftixar və qürur hissi keçirir ki, dahi şəxsiyyət, ümumilli liderimiz Heydər Əliyevin gecəli-gündüzlü gərgin əməyi sayəsində Azərbaycanda iqtisadi və sosial sahə surətlə inkişaf etmiş içtimai-siyasi sabitlik bərqərar olmuşdur. Bu böyük öndər ümumilli liderimiz Heydər Əliyevin uğuru və bizə olan töhfəsidir.

1993-cü il iyunun 9-da Heydər Əliyevi Naxçıvandan Bakıya gətirən yol Azərbaycan xalqının və dövlətçiliyinin nicat və qurtuluş yoluna çevrildi. Bu gün o uğurlu yolun ildönümüdür. Bu yubiley münasibəti ilə vəsait işləməyi özümüzə borc bildik. Böyük fəxarət hissi ilə yazdığımız bu vəsait iki hissədən ibarətdir. I hissə "Əzablı yollarla qurtuluşa doğru" adlanır və görkəmli şəxsiyyət Heydər Əliyevin həyat yolundan və təkrarsız siyasətindən bəhs edir. II hissədə isə "Qurtuluş-Tarixin unudulmaz səhifəsi" adlanır və kitabxanada təşkil olunan tədbirlərdən söhbət açılır.

## Əzablı yollarla qurtuluşa doğru

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdi. Lakin müstəqilliyin ilk illəri siyasi hakimiyyət boşluğu və dövlətin əsaslarının, ordu və dövlət təhlükəsizliyi orqanları da daxil olmaqla, dövlətin bütün təsisatlarının boşluğu ilə əlamətdar idi. Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti daha da gərginləşdirirdi.

Vətənin bu ağır dövründə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi (1969-1982) olmuş, daha sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışmış, Moskvada istefa verdikdən sonra 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi bu diyarın xilası yolunda fədakarlıq nümunələri göstərən Heydər Əliyev xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıtdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin

sədri seçildi. Beləliklə, bu gün şanlı tariximizə "Tarixin dönüş anı", kimi daxil oldu. 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlər, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planını tam gücü ilə işə salmışdı. İki illik müstəqillik tarixinə baxmayaraq, ölkə təlatüm dalğasından hələ də xilas ola bilməmişdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi isə ölkəni tamamilə xaosa sürükləyirdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltmədi. Əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürüldü. Qiyamçı hərbi hissənin rəhbərliyi əvvəlcə Baş nazir və Milli Məclis sədrinin, sonra isə prezidentin istefasını tələb etdi. Vəziyyət nəzarətdən çıxır, ətraf rayonların icra başçıları zorla dəyişdirilir, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas alırdı. Ölənlər və yaralananlar var idi. Belə bir vaxtda dövləti məhv olmaqdan xilas etmək üçün ölkə rəhbərliyi Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi Bakıya dəvət etmək qərarına gəldi. Bakıya qayıtdandan sonra Surət Hüseynovla danışıqlar aparmaq məqsədi ilə Gəncəyə yola düşən Heydər Əliyev Milli Məclisin iclasında Gəncə hadisələri ilə bağlı arayış verdi. Beləliklə, iyunun 15-də Milli Məclisdə Heydər Əliyev istefa vermiş İsa Qəmbərin yerinə parlamentin sədri seçildi. Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etdilər və Milli Məclis

bu təklifi bəyəndi. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir. Artıq bir neçə ildir ki, xalq bu günü Heydər Əliyevin məzarını ziyarət etməklə anır. Azərbaycan xalqının milli qurtuluş günü-Azərbaycan Respublikasında rəsmi bayramlardan biri. 1997-ci ilin 15 iyun günündən bayram elan edilib. 1997-ci ildən qeyd olunan bayrama 1998-ci ildən dövlət statusu verilmişdir. Bu bayram münasibəti ilə kitabxanada sərgi  təşkil olunur. Sərgidə Milli Qurtuluş Günündən bəhs edən ədəbiyyatla dövrü mətbuat materialları qoyulur. Həmçinin sərgidə görkəmli şəxsiyyətin Milli Qurtuluş Günü ilə bağlı söylədiyi kəlamlara yer verilir. Sərgiyə müxtəlif başlıqlar, "Qayıdışdan başlanan Qurtuluş", "Qurtuluş yolu", "Əzablı yollarla qurtuluşa doğru", "Ağ atlı xilaskar", "Günəşə bənzər ömür", "15 iyun Milli Qurtuluş Günüdür", "Tarixin dönüş anı", "Müstəqilliyimizin xilaskarı", "Xiaskarlıq missiysı", "Möhtəşəm qayıdış", "Müstəqilliyimiz dönməzdir və əbədidir", "Azərbaycanı həqiqi müstəqilliyə qovuşduran gün", "Bitməyən xalq sevgisi ilə milli qurtuluş", "Tarix yaradan lider", "Xalqın qurtuluş və özünü təsdiq tarixi", "15 iyun tarixə düşən gün", "Bir oğul göstərin Heydərə bənzər", "Milli Qurtuluşun zəfər yolu", "Milli Qurtuluş-Xalqın və onun həqiqi liderinin möhtəşəm zəfəri", "Milli Qurtuluş Günü-millətin özünə inamının bərqərar olduğu gün", "Günəşə bənzər ömür" və s. verilə bilər. Sərgidə Milli Qurtuluş günündən bəhs edən ədəbiyyatlar, bu haqda dövri mətbuatda dərc olunmuş materiallar sərgilənir.


















Kitabxanamızın biblioqrafiya şöbəsinin müdiri Əhmədova Sevil "Milli Qurtuluş" günü münasibətilə uşaqlar üçün "Hamının babası", yeniyetmələr üçün isə "Azərbaycan Heydərlərin yurdudur" adlı slayd təşkil edərək saitə yerləşdirmiş, bu mövzuda ədəbiyyat siyahısı hazırlamışdır. Saitimizə girərək həmin materiallardan yararlana bilərsiniz. Bununla yanaşı kitabxanada Milli Qurtuluş günü ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bunlardan biri də "Konfrans" dır. Kitabxanada yuxarı sinif şagirdlərinin iştirakı ilə "Milli Qurtuluş Günü" ilə bağlı konfrans da təşkil etmək mümkündür. Konfransdan əvvəl onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edərək qonaqların, tarixçilərin, siyasətçilərin və

şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi dəqiq vaxt məkan və zaman qeyd olunur. Konfrans zamanı Milli Qurtuluş Günü ilə bağlı və ulu öndər Heydər Əliyev haqqında kitab və digər yazılar yazmış jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Milli Qurtuluş Gününün yaranması və bayram olaraq qeyd edilməsi haqqında məruzə).
2. Ümumilli lider Heydər Əliyev və "Milli Qurtuluş Günü" haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və tarixçilərin çıxışları.
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Ümumilli lider Heydər Əliyev və "Milli Qurtuluş Günü" haqqında məruzələri.
4. Konfransın yekunu.

**Kitabxanaçı: -**Xalqımızın müstəqillik tarixində müstəsna yeri olan 15 iyun- Milli Qurtuluş Günü ilə ölkəmizin həyatında yeni dövr başlanmış, dövlətçiliyimizin dönməz və əbədi olması üçün mühüm və səmərəli fəaliyyətin əsası qoyulmuşdur. Xalqımızın tarixi yaddaşına əbədi həkk olunmuş qurtuluş bayramı ölkəmizin hər yerində dahi lider Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, onun xalqa göstərdiyi təmənnasız və fədakar xidmətlərinə böyük minnətdarlıq hissi ilə qeyd olunur. XX əsrin sonlarında Sovet ittifaqı kimi nəhəng bir dövlətin süqutu imperiyadan asılı olan respublikalara müstəqillik bəxş etdi və bu müstəqil dövlətlərin meydana gəlməsi ilə nəticələndi. Yaranmış tarixi şəraitdən istifadə Azərbaycan da 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini elan

etdi. Bu vaxta qədər isə, 80-cı illərin axırında, 90-cı illərin əvvəllərində respublikaya rəhbərlik etmiş şəxslərin kölə psixalogiyası, prinsipsizliyi, qətiyyətsizliyi və düşünülməmiş kor-koranə addımları Azərbaycanı getdikcə tənəzzülə doğru aparmış, torpaqlarımızın bir-birinin ardınca düşmənlərimizin əlinə keçmişinə şərait yaratmışdır. 1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan içtimai-siyasi, hərbi böhran 1993-cü ilin yayında özünün son həddinə çatdı. Ölkəmiz müstəqillik yoluna qədəm qoysa da, hələ müstəqil dövlətçilik ənənələri formalaşmamışdır. Bir-birini əvəz edən səriştəsiz, idarəetmədə naşı olan o vaxtkı dövlət rəhbərləri ölkədə elə xaos, anarxiya, özbaşınalıq yaratmışdılar ki, xalqın qanı bahasına qazanılmış müstəqillik artıq uçuruma doğru yuvarlanırdı. Savadsız rəhbərlərin məntiqsiz siyasəti nəticəsində torpaqlarımız erməni işğalçıları tərəfindən zəbt olunur, günahsız insanlar qətlə yetirilir, öz ata-baba yurdlarından didərgin salınanların sayı durmadan artırdı. Özbaşınalıq, anarxiya o həddə çatmışdı ki, dinc əhali nəinki küçələrə çıxır, hətta evlərində də rahat yata bilmirdilər. Siyasi hakimiyyətsizlik Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qoymuşdu. Müstəqil Azərbaycanı xarici işğaldan və daxili parçalanmadan qoruya biləcək şəxsiyyət və milli lider yox idi. O zaman xalqın belə bir milli liderə çox böyük ehtiyacı vardı. Xalq öz nicat yolunu, ömrünə Azərbaycan xalqının Azərbaycanın xilaskarlıq missiyası yazılmış Ümumilli lider, tarixi şəxsiyyət Heydər Əliyevdə görürdü. Heydər Əliyevin yenidən siyasi hakimiyyətində görür, təkidli, çoxsaylı çağırışlarla onu gözləyirdi. Bu böyük ümumxalq inamını, etibarını, etimadını Heydər Əliyev Azərbaycan xalqına sədaqətli, şərəfli xidməti ilə qazanmışdı.

Ümumiyyətlə, Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələrində əldə olunmuş uğur və nailiyyətlər birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Çünki dövlətimizin başçısı İlham Əliyev də məhz Ulu öndərin layiqli yetirməsidir.

*Kitabxanaçının çıxışından sonra konfransda iştirak edən məruzəçilərə söz verilir.*

**I məruzəçi:** Ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı tarixi zərurət idi. Bu qayıdışın daha bir nəticəsi xalqın özünəinam hissinin bərpası idi. Təsadüfü deyil ki, Heydər Əliyev Naxçıvandan Bakıya dönən gün bütün Azərbaycan sevinc içərisində idi. Ürəklərin kədərinə, həsrətinə, ümidsizlik və iztiraba son qoyulmuşdu. Xalq inandığı, etibar etdiyi oğlunu və rəhbərini gül-çiçəklə, qəlbinin ən böyük sevinci ilə qarşılayırdı. Heydər Əliyevin müdrikliyi ilə Azərbaycanın bir sıra ciddi problemləri həllini tapdı. Azərbaycan ən əvvəl vətəndaş müharibəsi təhlükəsindən, daxili parçalanmadan, sonra isə beynəlxalq aləmdən təcrid olunmaqdan xilas oldu. Ötən müddət ərzində respublikada baş verənləri tək-tək sadalamağa ehtiyac yoxdur. Böyük zəhmət, gərgin fəaliyyət sayəsində başa gələn daxili, ictimai-siyasi sabitlik, sosial inkişaf və nəhayət, olduqca böyük iqtisadi tərəqqi... Məhz Ümumilli lider, tarixi şəxsiyyət Heydər Əliyevin xalqa, millətə hədsiz sevgisi və bu sevginin əməli nəticəsi olan yorulmaz fəaliyyəti nəticəsində bu gün respublikamızın öz inkişaf tempinə nəinki MDB ölkələrindən, hətta dünyanın bir çox iri və inkişaf etmiş dövlətlərindən də öndədir.

**II məruzəçi:** -Azadlıq, müstəqillik hər bir xalq, dövlət üçün ən müqəddəs nemətdir. Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi uğrunda illərlə mübarizə apararaq, xalqımız bu yolda minlərlə şəhid verdi. Ulu öndər Heydər Əliyevin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisi hər bir dövr üçün aktuallığını qoruyur, birliyə, həmrəyliyə, bir çağırış kimi önə çəkilir. Bu baxımdan Azərbaycanın dövlət müstəqilliyininn yenidən bərpa edilməsi ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışıdır. Bu iki hadisə bir-biri ilə sıx bağlıdır. Ümumilli liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı o zaman yenicə bərpa edilmiş dövlət müstəqilliyimizin başı üzərini almış və çox ciddi təhlükələrin aradan qaldırılması ilə əlaqədar idi. Bu təhlükələri yaşayan Azərbaycan xalqı ölkəni düçar olduğu vəziyyətdən xilas etmək üçün dahi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etməklə Azərbaycanın qarşısında bugünkü uğurlarımız üçün imkanlar yaratdı.

**III məruzəçi:** Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan,

hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır - Heydər Əliyev.

**IV məruzəçi:** 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı-alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişlənirdi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. AXC-Musavat iqtidarı uzun müddət öz yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırdı. Vətəndaş müharibəsi üçün zəmin yarandı. Başlanmış bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən iqtidar son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Azərbaycanın görkəmli oğlu böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu nəhəng şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. Indi inamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Ümummilli liderimiz Gəncədə baş verən hadisələrə

münasibət bildirərkən demişdi: “Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar”. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.

**V məruzəçi:** 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir!

**VI məruzəçi:** Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz

bərpa edilmiş, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".Tarixin, dövrün, zamanın yazıları, əsrlərlə silinməyən, daim xatırlanan yaddaşı olduğu kimi, zaman da tarixin yol yoldaşı, bələdçisidir. Zamanı, bütöv bir dövrü, bəzən bir anı tarixləşdirən, əbədiləşdirən isə qüdrətli, müdrik, dahi şəxsiyyətlərdir.

**VII məruzəçi:** Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Mən sözlərimi dahi şəxsiyyət Heydər Əliyevin öz sözləri ilə yekunlaşdırmaq istərdim. "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayaram və həyatımı da xalqıma qurban verməyə hazıram".

*Konfransın sonunda kitabxanaçı bu fikirlərlə konfransı yekunlaşdırdı.*

**Kitabxanaçı:** "Azərbaycan xalqı dahi şəxsiyyət Ümummilli liderimiz Heydər Əliyevi hakimiyyətə dəvət etməklə Azərbaycanın bu günkü uğurlarının bünövrəsini yaratdı. Bu reallıq inkaredilməzdir

ki, dövlətimizin düzgün təmələ əsaslanan siyasəti nəticəsində arxada qalan il əvvəlki ildən daha böyük uğurlarla zəngin olur. Ölkənin hərarətli inkişafında iqtisadi inkişafında iqtisadi amilin rolunu önə çəksək. Azərbaycanın iqtisadi inkişaf strategiyasının bu gün digər ölkələrə nümunə göstərilməsi uğurlarımızın təsdiqidir. 2003-cü ildən Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmiş, beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevirmişdir... Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin 1993-cü ilin 15 iyununda ikinci dəfə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı dövlətimizin və millətimizin qurtuluş tarixidir. Bu tarixi hər bir azərbaycanlı dərk edir və ondan nəticə çıxarır.

**Görkəmli şəxsiyyətlərin ulu öndər Heydər Əliyev və “15 iyun Milli Qurtuluş Günü” haqqında söylədikləri:**

Gərək heç kəs bunu unutmasın ki,1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi... 1993-cü ildə Azərbaycan yanırdı.

Heydər Əliyev,
*Ümummilli lider*

“Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə prezident Heydər Əliyev kimi siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

Jak Şirak,
*Fransa Respublikasının prezidenti.*

Məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdik ki, o, müstəqil yaşamaq istəyir və öz ərazisinin, zəngin təbii sərvətlərinin sahibi olmağa, bütün sərvətləri barəsində müstəqil qərar qəbul etməyə qadirdir.

**Qreq Laflin,**
*ABŞ-ın tanınmış siyasi xadimi.*

“Müstəqil Azərbaycanın inkişaf və quruculuq tarixi məhz 1993-cü il 15 iyunundan başlayır.

**Tahir Süleymanov,**
*Millət vəkili*

“Ulu öndərin bu qayıdışı Vətənin xilası, xalqın qurtuluşu idi”.

**Nəriman Əliyev,**
*Millət vəkili*

“Azərbaycanın inkişaf etməsi məhz Qurtuluş Günü ilə başlayıb və həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir”.

**Kamil Rzayev,**
*Millət vəkili.*

“Hər birimiz həyatımızdakı inkişafa görə Milli Qurtuluş Gününə borcluyuq.

**Rauf Əliyev,**
*Millət vəkili.*

“Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışı Azərbaycanın siyasi, iqtisadi, mədəni inkişafının əsasını qoydu”.

**Arif Rəhimzadə,**
*Azərbaycanın dövlət və içtimai-siyasi xadimi.*

Bu gün 1991-1993-cü illərin o böhranlı, ağrılı-acılı, faciəli günlərini qəlbində vətən, millət sevgisi olan hər bir azərbaycanlı böyük təəssüf, dərin kədər hissi ilə xatırlayır.

**Qoşqar Əliyev,**
*Professor.*

15 iyun Milli Qurtuluş Günü ilə əlaqadar olaraq kitabxanada şeir müsabiqəsi keçirilə bilər. Bunun üçün kitabxanaçı məktəblilərə bu gün və müsabiqə haqqında məlumat verir. Məktəblilərə15 iyun-Milli Qurtuluş Gününü ilə bağlı şeirlər təqdim edilir və məktəblilər şeirlərlə tanış olurlar. Müəyyən olunmuş vaxtda şagirdlər kitabxanaya gəlirlər. “Bir günəş var ”adlı şeir müsabiqəsini açıq elan edən kitabxanaçı 15 iyun Milli Qurtuluş Günü və Ulu öndər Heydər Əliyev haqqında qısa məlumat verir.

*Kitabxanaçı:* Böyük şəxsiyyətləri fərqləndirən ali xüsusiyyətlərdən biri onların yalnız bu gün deyil, perspektiv barədə düşünmələri,

insanların gələcək həyatında mühüm rol oynayan strateji qərarlar qəbul etmələridir. Başlanğıcda bəlkə də qanunauyğunluq kimi nəzərdən keçirilən bu qərarların sonradan ümumilikdə xalqın, dövlətin tərəqqisi, inkiaf baxımından necə əlahiddə əhəmiyyət daşıdığı daha aydın görünür. Bu mənada ümummilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin dövlət və xalq naminə qəbul etdiyi qərarların strateji əhəmiyyətini bugünün özündə də duyur, gündəlik həyatımızda, taleyimizdə qabarıq hiss edirik... Hamımız üçün doğma və əziz olan Heydər Əliyev dünya şöhrətli siyasətçi, zəmanəsinin ən böyük şəxsiyyəti idi. O, Azərbaycanın güclü, inkişaf etmiş qüdrətli dövlətə çevrilməsi yolunda əlindən gələni əsirgəməmişdir. Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir.

*I iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə şeiri deməyə başlayır.*

*Şöhrətim vətəndir.*
*Müəllif: Məstan Günər*

Heydər yer üzünə
Tək gəldi-getdi.
Hələ sağlığında
Heykəldi-getdi.
Millətin əlindən
Yapışdı bərk-bərk
Əzmi dahilərə

Diz çökdürərək.
Dedi ki, tanıyın
Azərbaycanı!
Yurduma bənzəyən
Bir torpaq hanı?
Onun imzasına
İmza atdılar,
Qızıl kəlməsinə
Qızıl qatdılar.
Onun bir kəlməsi
İki olmadı.
Çəkdi, ağır dağlar
Yükü olmadı,
Hər yerdə, hər zaman
"Millətim" dedi.
Şöhrətim Vətəndir,
Qüdrətim, dedi.

II iştirakçı:

*Azərbaycan deyəndə.*
*Müəllif: Tofiq Bayram*

Vətən mənim bu günüm,
Sabahkı toy-düyünüm.
Haqqım var ki, öyünüm
Azərbaycan deyəndə.

Ürəklərdə döyünüm,
Azərbaycan deyəndə.

“Hər ölkəyə, hər elə,
Olsun hörmət”, deyirəm.
“Vətənindir, vətənin,
İlk məhəbbət”, deyirəm.

“Onun şöhrət tacıdır,
Şeir-sənət” deyirəm.
Mən vətənə, “Füzuli,
Abbas Səhhət” deyirəm!
Mən vətənə, “Sabiri
Doğan qeyrət”, deyirəm!
Mən vətənə, “Üzeyir,
Müşfiq, Səməd”, deyirəm!
“Günəş kimi müqəddəs
Bir həqiqət”, deyirəm,
Azərbaycan deyəndə.
“Dünya məni dinləsin,
– Diqqət, diqqət!”,
deyirəm.
Azərbaycan deyəndə!
Azərbaycan deyəndə,
Ləpələr şairləşir.
Anaların bətnində,
Qara gözlü körpələr
Pələngləşir şirləşir.
Azərbaycan deyəndə,
Müdrik qocalar kimi

Dağlar da fikirləşir.
Azərbaycan deyəndə
“Haralısan?” sualı,
Verənlərə ar olur.
Qeyrətlilər birləşir,
Qeyrətsizlər xar olur
Azərbaycan deyəndə!
Dostdan sovqat, muştuluq,
Düşməndən bac alaram,
Azərbaycan deyəndə!
İşıq sütunu kimi
Sabaha ucalaram,
Azərbaycan deyəndə!
Körpüləri, səddləri
Sinəmlə parçalaram.
Sərhəd məftillərində,
Bu kobud əllərimlə
Bir muğamat çalaram,
Azərbaycan deyəndə!
Azərbaycan! – Bu nida
Qayaları silkələr.
Sal daşların köksündə
Çiçək bitər, gül bitər.
Azərbaycan deyəndə,
Təbim coşar, sel gələr,
Sanma şöhrət pərdəsi,
Ürəyimi kölgələr,

Azərbaycan deyəndə.
Gözümdə doğmalaşar
Bütün xalqlar, ölkələr,
Azərbaycan deyəndə!

*III iştirakçı:*

*Mübariz İbrahimov*
*Müəllif: Rusif Hüseynov*
Halal olsun sənə VƏTƏN çörəyi,
Halal olsun sənə xalqın əməyi,
Gör necə olarmış igid ürəyi,
Yazdın yaddaşlara silinməz bir iz!
Qəbrin nurla dolsun sənin MÜBARİZ!
Düşmənin gülləsi qırmaz əzmini,
İstər yüzü olsun istərsə mini,
Qürurla anırıq sənin ismini,
Üzün nur, qəlbin saf, ruhun tər təmiz!
Qəbrin nurla dolsun sənin MÜBARİZ!
Yas tutub Qarabağ, Ağdam, Ağdərə,
Quruyub bulaqlar, solub dağ, dərə,
Rəhmət diləyirik sənə min kərə,
Səninçün ağlayır bu çay, bu dəniz!
Qəbrin nurla dolsun sənin MÜBARİZ!
Oyatdı millətdə VƏTƏN hissini,
Susdurdu, düşmənin kəsdi səsini,
Kişi tək ödədi vəzifəsini,
Sən bizə örnəksən! Sən şərəfimiz!

Qəbrin nurla dolsun sənin MÜBARIZ!
Rusif yazsa sənə min cildlik əsər,
Bu dastan, bu əsər, yenə az edər,
Şeirlə təsəlli tapdım bir qədər,
Haqqını ödəməz şeir, əsərimiz!
Qəbrin nurla dolsun sənin MÜBARİZ!
Hələ unutmadım Ramil, Fəridi
Sığmaz yerə göyə qəlbimin dərdi,
Hələ ki, sözlərim bura qədərdi,
Borcluyuq sizlərə biz hər birimiz!
Qəbrin nurla dolsun FƏRİD! MÜBARİZ!

*IV iştirakçı:*

Şuşa!!!
Müəllif: Səməd Vurğun
Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz.
Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət, Şuşa!
Dağlarından qopar havalı yellər,
Ah,o sərin yellər,səfalı yerlər.
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət, Şuşa!
Xırdaca-xırdaca yağışın yağar,
Çən-çisək içindən günəşin doğar,

Bir ağız bir bulaq suyunu içər,
Eyləyirsən yenə qiyamət, Şuşa!
Bir əcəb gülşəndir torpağın,daşın,
Dumanlı dağlardır həyat yoldaşın.
Bir ağrı gördümü ömründə başın,
Ey fitrən xəlq olmuş təbabət, Şuşa!

*V iştirakçı:*

*Ordum varsa, yurdum var.*
*Müəllif: Zəlimxan Yaqub.*

Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi.
Mənə ordu gərəkdir, sarsılmaz cahan kimi.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Düşmənin yuvasını əlimlə pozmalıyam.
Səngəri dırnağımla, dişimlə qazmalıyam.
Tarixi qələmlə yox, qanımla yazmalıyam,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Gözlər od, əllər silah, canlar sipər olmalı,
Kirpiyimiz sıxılmış yurda çəpər olmalı,
Damarda qan coşmalı, canda təpər olmalı,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Bizə od vuranları yandırıb-yaxan gərək.
Torpağı gözümüz tək qoruyub baxan gərək

Qəzəb dolu tüfəngəm, çaxmağı çaxan gərək
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Torpağa sahib olub yer üstə yerləşməsək,
Bir canda, bir ürəkdə, bir ruhda birləşməsək,
Millətin taleyini dürüst fikirləşməsək,
Özgələrdən bizlərə dırnaq qədər yardım yox.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
İnamsız bir qartalın qanadları gərilməz,
Döyüşsüz azadlığın meyvələri dərilməz,
Şəhidsiz bir millətin vətən ruhu dirilməz,
Oğullar ola-ola, necə deyim mərdim yox.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!

*Sonda münsiflər heyəti qalibləri təyin edərək onları mükafatlandırır.*

15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də "əbədi-bədii gecədir". Gecə oxuculara həmin günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Ədbi-bədii gecəyə tarixçilər, tarixi şəxsiyyət və siyasətçilər, içtimai elm xadimləri, yazarlar, tarix müəllimləri dəvət olunur. *Aparıcılar* ***"Qurtuluş-Tarixin unudulmaz səhifəsi"*** *adlı ədəbi-bədii gecəyə kecid almaq üçün səhnəyə yaxınlaşırlar. Ilk öncə Ulu öndər Heydər Əliyevə həsr olunmuş slayt verilir.*

*I Aparıcı:* Salam dəyərli qonaqlar, tədbir iştirakçıları, 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar şanlı tarix dolu qan yaddaşımızdan qopub gələn ədəbi-bədii gecəmizə xoş gəlmisiniz. Biz bu gün

dünənimizə, lap yaxın keçmişimizə qayıtmaq istəyirik sizlərlə. O, keçmişimizə ki, biz o anların lap yaxından şahidi olmuşuq. O ağır, qanlı-qadalı günlər gəlib keçib ömür səhifəmizdən. O keçmişimiz ki, tariximizə tarix yazılıb-15 iyun Milli Qurtuluş Günü... Qayıdış günü... Özümüzə, ölməzliyimizə qayıtdığımız Qayıdış günü...Şanlı tariximiz daha da ucaldı bu günü ilə. Zəfər marşını çaldı sanki zaman Azərbaycanımıza.

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin yelpiklənən yarpağı,-
Azərbaycan bayrağı !
Sənsən Azadlıq eşqim, sənsən Hürr, – deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı !
Azərbaycan bayrağı !

*II Aparıcı:* Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə tarixi günlər vardır ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası qoyulub. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür.Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün əzizdir. Milli Qurtuluş Günü sadəcə təqvim bayramı deyil, böyük içtimai, siyasi tarixi əhəmiyyətə malik gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri

ilə görən insanlar üçün 15 iyun Milli Qurtuluş Günü əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan-Heydər Əlirza oğlu Əliyevdir.

*I Aparıcı:* "Heydər Əliyev xalqımıza ulu Tanrının payıdır"-deyənlər nə qədər də haqlıdırlar. Bu deyim təsadüfən yaranmayıb. Azərbaycanın 1969-1982 və 1993-2003-cü illərdə, yəni ümummilli liderimizin rəhbərlik etdiyi dövrlərdə əldə etdiyi naliyyətlərə diqqət etsək, bu dediyimizin haradan yarandığına əmin olarıq. Heydər Əliyevin canından artıq sevdiyi vətən qarşısında göstərdiyi misilsiz xidmətlər, cahanşümul əməllər onun hər bir Azərbaycan vətəndaşının qəlbində möhtəşəm bir abidəsini ucaltmışdır. Bu tarixi simanın şüurlu ömrünün hər bir anı doğma vətəninə və xalqına, onun yüksəlişinə və tərəqqisinə xidmətə həsr edilib.

*II Aparıcı:* Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali sovetin sədri seçildi. Heydər Əliyevin respublika rəhbərliyinə bu böyük qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Elə o zaman Heydər Əliyev çıxışlarının birində belə demişdi: "Azərbaycan bərbad vəziyyətdədir, kabinetlərdə boş-boş şayələrlə məşğul olurlar. Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərəcəyəm." Bəli, indi bu fəaliyyətin nəticələri artıq hər birimizə bəllidir. Məhz bu fəaliyyətin hesabına Azərbaycan yaşayır, tərəqqi edir.

*I Aparıcı:* 1997-ci il 27 iyun tarixli qərarı ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması günü-1993-cü il iyunun 15-ni Milli Qurtuluş Günü elan etdi. Heydər Əliyevin heyrətamiz xilaskarlıq missiyası nəticəsində Azərbaycan tezliklə təlatümlərdən. Sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan dövlətə çevrildi. Prezident İlham Əliyev ulu öndərin xalqı qarşısında göstərdiyi xidmətləri qeyd edərək deyib: "Bu illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. 1993-cü ildən başlamış bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".

*II Aparıcı: (Məstan Günər. Bir oğul göstərin Heydərə bənzər.)*

Bir oğul yetirmiş vətən torpağı.
Millətin yolunda əsgərə bənzər.
İdrakı, ilhamı, qəddi-qaməti,
Qüdrətə, hikmətə məhvərə bənzər.

Yerində şax sözü...Xoş təbiəti,
Ellər sərvətidir zehni-zəhməti.
Tarixə döndükcə onun şöhrəti,
Tarix də nurlanıb gövhərə bənzər.

Nələr yaratmadı, qurmadı nələr,
Kənddə kənd dəyişdi, şəhərdə şəhər.

Daşlı yamaclarda zümrüd sərvlər,
Başına dönməli dilbərə bənzər.

Kor olub görməyən varsa bunları,
Utansın, işığa çaxmasın barı.
El yaxşı tanıyır bu nankorları,
Hər biri nəf gündən bərbərə bənzər.

Hər zaman yolunu gözləmiş ellər,
Şirin bir töhfədir ona könüllər.
Yollar kənarında əlində güllər,
Qızlar görmüşəm ki, ülkərə bənzər.

Dahidir, dühadır öz sənətində,
Andı var, elləri qoymaz çətində.
Dərin tədbirində, siyasətində,
Qüdrətdən yaranmış zərgərə bənzər.

Uğrunda hazıram nə vaxt dinərsə,
Simləri könülsüz tərpətmirəm mən.
Rəhbəri dağlara bənzətmirəm mən,
Dağlar vüqarında rəhbərə bənzər.

Uğrunda hazıram nə vaxt dinərsə,
Hazıram, “şəhid ol” əmrini versə.
Əgər Məstan Günər Məstan Günərsə,
Onun dövrəsində sipərə bənzər...

*I Aparıcı:* Heydər Əliyev böyük rəmz idi. Ağıl, idrak rəmzi, siyasətdə düzgün və birbaşa siyasətin müəllifi, ustadı idi. Hələ Naxçıvanda olanda üçrəngli bayrağı-Demokratik Cümhuriyyətin bayrağını qəbul etmiş, Azərbaycan Sovetlər İttifaqının məngənəsində çabaladığı vaxtlarda o, tarixi varisliyi-tarixi əlaqəni, mənəvi körpünü bərpa etmişdi. Heydər Əliyev keçmişin qədrini yaxşı bilirdi. Tarixi əziz tutur, tarixdən faydalanmağı yaxşı bacarırdı. Tarix onun üçün uzaq gələcəyi göstərən teleskop idi. O, gələcəyi tarixin gözü ilə görə bilirdi.

*II Aparıcı:* Gəlin tariximizə, dövlətimizə, müstəqilliyimizə, xalqımıza Ulu öndər Heydər Əliyevin öz sözləri ilə nəzər salaq: "Azərbaycan dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir", "Müstəqilliyin əldə olunmasına qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir", "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasına öz töhvəsini verir", "Heç bir vətəndaş içtimai siyasi həyata biganə qalmamışdır", "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki, onların hər biri ümumdünya mədəniyyətinə və sivilzasiyasına öz töhfəsini verir".

*I Aparıcı:* 15 iyun-Milli Qurtuluş Günüdür. Azərbaycan tarixini bilən adamlar üçün Azərbaycan tarixini öyrənənlər üçün, Azərbaycan həqiqətlərinə tapınanlar üçün və Azərbaycan taleyini öz taleyi bilənlər üçün bu tarix həmişə müqəddəs olacaqdır. Bizim bütün sahələrdə işlərimiz uğurla gedir. Bizi narahat edən və hələ nail olmadığımız bir problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ

münasibətidir. Azərbaycan dövləti artıq qurulub. Azərbaycan dövləti artıq öz tarixinə doğru inamlı addımlar atır. Bütün bunların başlanğıcı bir neçə il faciələrdən, fəlakətlərdən, qurtuluş anından başlayır. Ulu öndər Heydər Əliyev özü necə də müdrikcəsinə deyib: "Tarix nədən yaranır? Tarixi insanlar yaradır. İnsanların şəxsiyyəti tarixi yaradır-əgər onlar şəxsiyyətdirlərsə".

*Sənin yerin görünəcək!*

*(Zəlimxan Yaqub)*

Dünya durmaz bir məqamda,
dönər, haldan-hala düşər,
Yorulanda karvanbaşı
işi daldan-dala düşər.
Ayaqları dolaşanda
Başı gilü-qala düşər,
Bir xilaskar sorağıyla
çırpınanda arzu, dilək
Sənin yerin görünəcək!!!

Tərəzinin ağır gözü
şərə doğru əyiləndə,
Haqla nahaq savaşında
haqqın haqqı yeniləndə,
"Bir ədalət tərafdarı
gəlib çıxa" deyiləndə,
Qarışanda bir-birinə
Insan, şeytan, iblis, mələk,
Sənin yerin görünəcək!!!

Keçir tarix, gedir zaman,
dövran əldən-ələ düşür,
Hava tez-tez dəyişəndə
canlara vəlvələ düşür.
Yada hər vaxt Ustad düşür,
Ozan düşür, Dədə düşür,
Öz hökmünü həftədə bir
Dəyişəndə çərxi-fələk
Sərin yerin görünəcək!!!

Hər yüz ilin başında da,
hər ilin dörd fəslində də,
Hər il sənin ad günündə,
may günündə,
Sənin bizə ulu nemət,
İlahinin pay günündə,
Azərbaycan başdan-başa
açılanda çiçək-çiçək,
Dünya dadlı, dünya gözəl,
dünya şirin görünəcək,
Sənin yerin görünəcək!!!
Sənin yerin görünəcək!!!
Sənin yerin görünəcək!

**KİTABLAR**
HAQQINDA

**Axundova E. H.** Heydər Əliyev. Şəxsiyyət və Zaman. I hissə : 1923-1969. - Bakı : Ozan, 2007. - 352 s.
**Axundova E. H.** Heydər Əliyev. Şəxsiyyət və Zaman. II hissə : 1969-1982. - Bakı : Ozan, 2007. - 784 s.
**Axundova E. H.**Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə : 1982-1990. - Bakı : Ozan, 2009. - 804, [48] s.
**Axundova E. H.** Heydər Əliyev. Şəxsiyyət və Zaman : həyat və fəaliyyətinin xronikası. IV hissə : 1969-1989. - Bakı : Ozan, 2008. - 328, [64] s.
**Andriyanov V. İ.** Heydər Əliyev. - Rus dilində ikinci nəşrindən tərcümə. - Bakı : Nurlan, 2008. - 560 s. : rəngli foto, foto. - (Görkəmli Adamların Həyatı : bioqrafik silsilə ; 1205 (1005) buraxılış).
**Babayev X.** Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi . - Bakı : Borçalı, 2004. - 144 s.
**Çobanov M. N.** Görkəmli strategiyaçı. - Bakı : Borçalı, 2004. - 48 s.
**Əli A.** Böyük ömrün anları : Mustafa Kamal Atatürkün və Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən fəlsəfi-publisistik foto-illüstrativ esse. - Bakı : Təhsil, 2004. - 220 s.
**Əliyev Q.M.** Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s. : rəngli.foto, portr.
**Əliyev T.** Azərbaycanı dünyaya tanıdan Böyük İnsan : Heydər Əliyev-90. - Bakı : Oğuz Çap, 2013. - 226 s.
**Həmzəoğlu R.** Heydər Əliyev və Azərbaycan təhsili. - Bakı : Vektor, 2007. - 300 s. : rəngli foto.
**Xınalı Z.** Hərbi məktəblərin banisi. - Bakı : Adiloğlu, 2006. - 264 s. : foto.
**Qasımlı M. C.** Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci

illər). - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2006. - 608 s.
**Mahmudov Y. M.** Heydər Əliyev ideyalarının zəfər yürüşü. - Bakı : Təhsil, 2011. - 608 (548+60) s. : portr., rəngli foto.
**Mahmudov Y. M.** Heydər Əliyev ideyalarının zəfər yürüşü // Seçilmiş əsərləri. **IX cild : - Bakı : Təhsil, 2011. - 576 s.**
**Mehdiyev R. Ə.** Vətəndaş cəmiyyətinə yol açan ideyalar. - Bakı : CBS Polygraphic production, 2006. - 583 s. : rəng. foto.
**Mirələmov H. F.** Həqiqət : publisistik düşüncələr. - Bakı : Azərbaycan, 2003. - 448 s.: rəngli foto.
**Mirələmov H. F.** Millətin atası : publisistik düşüncələr, tarixi esselər, məktublar. - Bakı : Azərbaycan, 2004. - 288 s.
**Mirələmov H. F.** Bir günəş var : tarixi-publisistik düşüncələr. - Bakı : Səda, 2004. - 240 s.
**Mirzə V.** Azərbaycan dövlətçiliyinin qoşa qanadı. II kitab. - Bakı : Təhsil, 2006. - 344 s. : rəngli foto.
**Mirzəzadə R.** Azərbaycanı dünyaya tanıdan insan. - Bakı : Göytürk, 1998. - 335 s.
**Müstəqillik yolunda yanan** işıqlar. - Bakı : Təhsil, 2004. - 342 s.
**Nazimoğlu R.** Azərbaycan millətinin əvəzolunmaz lideri. - Bakı : Araz, 2006. - 104 s.
**Orucov H.** Heydər Əliyev və Azərbaycanda milli siyasət. - Bakı : Şərq-Qərb, 2002. - 172 s.
**Seyidov M.** Zamanı qabaqlayan dahi. - Bakı : Vektor, 2007. - 315 s. : rəngli foto.
**Şükürov S.** Millət atası. - Bakı : Təhsil, 2000. - 208 s.
**Yəhyayev T. H.** Bir taledə iki ömür : xatirələr və düşüncələr. - Bakı : Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 2007. - 218 s. : foto, rəngli foto.

## BƏDİİ ƏSƏRLƏR

**Ərəstunoğlu R.** Əbədiyaşar dahi insan... - Bakı : Araz, 2007. - 120 s. : foto, rəngli foto.

**Günər M.** Bir oğul göstərin Heydərə bənzər : məktub, xatirə, şeir. - Bakı : Nağıl evi, 2009. - 115 s.

**Hacıyev C.** Onu zaman seçib : poeziya. - Bakı : Qanun, 2008. - 64 s. : rəngli foto.

**Qacar M.** Xilaskar : poema. - Bakı : Ulduz, 2004. - 58 s.

**Qasımov T.** İnam : poema. – B.: Adiloğlu, 2012. – 79 s.

**Qayalı Z. (Dəmirçi).** Əziz rəhbər : Ulu öndər. - Bakı : Təkan, 2013. - 40 s.

**Mehdi M.** Heydər Baba - Heydər dədə : poeziya. - Bakı : Adiloğlu, 2004. - 34 s.

**Mirələmov H. F.** Zəfər yolu : esse . - Bakı : Gənclik, 2003. - 66 s. : rəngli foto.

**Mirələmov H.F .** İşığın izi ilə : tarixi-ədəbi esse. - Bakı : Azərbaycan, 2004. - 288 s. : rəngli foto.

**Namaz M. Ə.** Günəş ömürlü insan : hekayələr və şeirlər. - Bakı : Təhsil, 2012. - 32 s.

**Tağıyeva M.** Mərd atasan : poeziya - Bakı : Nurlan, 2007. - 32 s. : rəngli foto.

**Teymur M.** Ağ atlı xilaskar : şeirlər və poema. - Bakı : Şirvannəşr, 2005. - 84 s.

**Yaqub Z.** Əbədiyyət dastanı : poemalar. I-II kitab. - Bakı : Pedaqogika, 2008. - 265 s. : rəngli foto.

# DÖVRÜ MƏTBUATDA

## 2005-2009

**Abbasov E.** Zərurətdən yaranan böyük tarixi gün // Respublika. - 2008. - 15 iyun. - S. 5.
**Abbasov İ.** Xalqımızın tarixində daha bir dönüş mərhələsi : 15 iyun - Qurtuluş Günü // Azərbaycan. - 2006. - 17 iyun. - S.5.
**Abdullayev E.** Müstəqilliyimizin təminatçısı : Heydər Əliyev - 85 : 15 iyun – Qurtuluş günü // azərbaycan. – 2008. – 14 iyun. – S.6.
**Abdullayev S.** Davamlı tərəqqi və yüksəlişə aparan yol // Azərbaycan. - 2009. - 13 iyun. - S. 3.
**Abdullazadə C.** Hakimiyyət ustadı : Heydər Əliyev haqqında // Azərbaycan. - 2008. - 15 iyun. - S. 7.
**Abdurəhmanlı İ.** Ümummilli liderimiz daim haqqın, ədalətin təntənəsinə çalışmışdır : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2006. - 15 iyun. - S.7.
**Abiyev A.** Azərbaycanın xilaskarı // Respublika. - 2008. - 15 iyun. - S. 6.
**Ağayev İ.** Milli Qurtuluş Günündən başlanan yol ölkəmizi uca zirvələrə aparır // Xalq qəzeti. - 2008. - 7 iyun. - S. 5.
**Alışov M.** Heydər Əliyev siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2006. - 21 iyun. - S.5.
**Arif Q.** Ümummilli liderin Gəncə səfəri : Heydər Əliyev - 85 : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2008. - 13 iyun. - S. 4.
**Atakişiyev M.** Milli inkişaf strategiyasının banisi // Azərbaycan . - 2008. - 15 iyun. - S. 12.
**Azərbaycan xalqının taleyində** dönüş anı - Milli Qurtuluş Günü // Xalq qəzeti. - 2008. - 15 iyun. - S. 1.
**Babayev L.** Qurtuluşdan başlayan yol Azərbaycanı xoşbəxt gələcəyə aparır : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2006. - 14 iyun. -

S.5.
**Baharlı M.** Demokratiyanın başlanğıcı : 15 iyun Qurtuluş Günüdür // Azərbaycan müəllimi. - 2006. - 23 iyun. - S.7.
**Bayramov Ə.** Müqəddəs xilaskarlıq missiyası : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2006. - 14 iyun. - S.4.
**Bayramov M.** Tarixi missiya // Respublika. - 2009. - 13 iyun. - S. 1.
**Cəbrayılov R.** İlk qurtuluşu təmin edən lider // Azərbaycan. - 2007. - 15 iyun. - S.8.
**Cəfərov F.** Azərbaycanın müstəqilliyinin əbədiliyi qurtuluşdan başlanır : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2006. - 15 iyun. - S.7.
**Cəfərov N.** Türk tarixinin böyük dövlət qurucusu, ictimai harmoniya ustası : 15 iyun - Qurtuluş Günü // Xalq qəzeti. - 2006. - 15,17 iyun. - S.1.; S.5.
**Cümşüdlü F.** Ulu öndər Heydər Əliyevin müdrik siyasəti daim Azərbaycanın milli mənafelərinə xidmət etmişdir // Xalq qəzeti. - 2009. - 11 iyun. - S. 3.
**Əhmədov Q.** Ölkə parçalanmaqdan qurtuldu : 15 iyun - Qurtuluş Günü // Azərbaycan. - 2006. - 11 iyun. - S.2.
**Ələkbərov Ə.** Qurtuluşdan başlayan inkişaf yolumuz // Respublika. - 2008. - 18 iyun. - S. 6.
**Əliyev A.** Azərbaycanı xilas etmiş böyük qayıdış // Respublika. - 2008. - 15 iyun. - S. 7.
**Əliyev A.** Azərbaycanın yeni dövrə qədəm qoyduğu gün // Respublika. - 2009. - 13 iyun. - S. 4.
**Əliyev A.** Qurtuluşdan dirçəlişə : 1993-cü ilin iyunundan başlanan bir yol // Azərbaycan. - 2007. - 15 iyun. - S.4.
**Əliyev E.** Zərurətdən yaranan böyük tarixi gün : 15 iyun Milli Qurtuluş Günü // Respublika. - 2009. - 10 iyun. - S. 3.
**Əliyev T.** İyunun 9- da ümummilli lider Heydər Əliyev xalqın çağırışına cavab olaraq xilaskarlıq missiyası ilə Bakıya gəldi : 15

iyun Qurtuluş Günüdür  // Xalq qəzeti. - 2007. - 9 iyun. - S.4.
**Əliyeva J.** Böyük Qayıdışdan başlanan Qurtuluş Günü // Xalq qəzeti. - 2008. - 15 iyun. - S. 5.
**Əliyeva N.** Azərbaycançılıq ideologiyasının banisi : 15 iyun - Qurtuluş Günü  // Azərbaycan. - 2006. - 18 iyun. - S.2.
**Əliyeva Z.** Azərbaycanın yeni dövrə qədəm qoyduğu gün  // Respublika. - 2008. - 15 iyun. - S. 3.
**Əsgərov A.** Heydər Əliyev zəkası müstəqilliyimizin qarantı oldu : 15 iyun Qurtuluş  Günüdür  // Xalq qəzeti. - 2006. - 11 iyun. - S.3.
**Əsgərov Ə.** Böyük qurtuluşun başlanğıcı  // Respublika. - 2009. - 14 iyun. - S. 3.
**Əzablı yollarla** : 15 iyun Qurtuluş Günüdr // Azərbaycan. - 2008. - 15 iyun. - S. 1.
**Əzizli T.** Xalqımızın həyatında ən əlamətdar gün  // Respublika. - 2009. - 13 iyun. - S. 3.
**Fərzəliyev A.** Milli ideallara bağlı lider : Heydər Əliyev haqqında  // Azərbaycan. - 2008. - 13 iyun. - S. 3.
**Hacıyev Q.** Milli Qurtuluş salnaməsinin müəllifi  // Azərbaycan . - 2008. - 12 iyun. - S. 4.
**Hacızadə A.** Moskvada dahi lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir  // Azərbaycan. - 2009. - 17 iyun. - S. 3.
**Həsənli E.** Bütün Türk dünyasının babası Heydər Baba : 15 iyun - Qurtuluş Günü   // Xalq qəzeti. - 2006. - 15 iyun. - S.6.
**Həsənov A.** Müstəqilliyimizin tarixi yolu işıqlıdır  // Respublika. - 2008. - 15 iyun. - S. 2.
